# Sarıcalıya növbəti köç

## Yenidən qurulan Ağdamın bu kəndi daha 153 sakinini qarşılayıb





İşğaldan azad edilmiş yurdlarına qovuşan keçmiş məcburi köçkünlərin sayı gündən-günə artır, qayıdış karvanları bir-birini əvəz edir. Digər şəhər və kəndlərimizlə yanaşı, el-obalarından didərgin salınmış sarıcalılılar da əzəli yurdlarına qayıdırlar. Bu qayıdış karvanları həyatın ən çətin, ən ağır üzünü görmüş insanları torpaqlarına qovuşdurur.



Uzun illər doğma yurd xiffəti ilə yaşayan insanların səsi artıq ata-baba ocağından gəlir. Dünən Ağdam rayonunun yenidən qurulan Sarıcalı kəndində daha 39 ailə - 153 nəfərin daimi məskunlaşması təmin edilib. Bununla da kənd sakinlərinin sayı 299 nəfərə çatıb.

30 ildən çoxdur bu günün xəyalıyla yaşadığını deyən keçmiş məcburi köçkün Elgiz Tağıyev bildirib ki, yenidən doğma yurdu Ağdama, əvvəlki xoş günlərinə, ata ocağına geri döndüyü üçün çox xoşbəxtdir: "44 gün sürən hərbi əməliyyatlar zamanı müzəffər Azərbaycan Ordusu Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə qəhrəmanlıq göstərdi, əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, birlik və həmrəylik nümayiş etdirərək düşmənə layiqli cavab verdi. Şükürlər olsun ki, bu gün biz sağsalamat öz doğma elimizə, obamıza qayıdırıq. Arzu edirəm ki, bütün məcburi köçkünlər bu sevinci yaşasınlar. Allah Ali Baş Komandanımızı və ölkəmizi qorusun. Şəhidlərimizə Allahdan rəhmət, valideynlərinə səbir diləyirəm. Onlar Vətən uğrunda canlarından keçdilər. Bu gün bizi doğma elimizə-obamıza qayıtmaq arzusuna çatdıran onlardır".





Böyük sevinc və qürurla yurduna qayıtdığını deyən keçmiş məcburi köçkün Hikmət Bağırovun sözlərinə görə, ailəsi ilə birlikdə doğma el-obasına döndüyü üçün sevincinin həddi-hüdudu yoxdur: "Bu günlər həmişə bizim arzularımızda, xəyallarımızda olub. Bu günü illərlə gözləmişik. Çox şükür ki, bu günləri görmək bizə nəsib oldu. İşğaldan azad edilmiş torpaqlarımız əsl sakinlərini qəbul edir. Ölkəmiz üçün yeni, uğurlu bir dövr başlayıb. Ermənilər torpaqlarımızı işğal etdilər, amma onlar bilmirdilər ki, biz canımızı verərik, heç bir zaman bir qarış ərazimizi də tapdaq altında qoymarıq. Bu gün qalib ölkənin vətəndaşları kimi illərdir arzusunda olduğumuz doğma yurda qovuşuruq. İlk növbədə Ağdamda ermənilər tərəfindən işgəncələrlə qətl edilən doğmalarımızın məzarlarını tapıb ziyarət edəcəyik. Daha sonra isə şad-xürrəm öz elimizdə, obamızda yaşayacağıq. İşğaldan öncə mən musiqiçi olmuşam. Bundan sonra da Ağdamda sənətimi davam etdirəcəyəm".

Xatırladaq ki, Böyük Qayıdış Proqramına əsasən məqsədyönlü tədbirlər həyata keçirilir. Əzəli yurd yerlərinə geri dönən insanların sayı artıq 12835 nəfərə (3241 ailə) çatıb, 5 şəhər və 8 kənd olmaqla 13 yaşayış məntəqəsində həyat axarına qayıdıb. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 570 ailə (2090 nəfər) Laçın şəhərində, 823 ailə (3136 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 371 ailə (1396 nəfər) Şuşa şəhərində, 52 ailə (204 nəfər) Xocalı şəhərində, 512 ailə (2293 nəfər) Cəbrayıl şəhərində, 136 ailə (660 nəfər) Xocalı rayonunun Ballıca kəndində, 50 ailə (166 nəfər) Ağdərə rayonunun Həsənriz kəndində, 180 ailə (592 nəfər) Ağdərə rayonunun Suqovuşan kəndində, 76 ailə (299 nəfər) Ağdam rayonunun Sarıcalı kəndində məskunlaşıb. Həyata keçirilən davamlı tədbirlər sayəsində tezliklə bütün işğaldan azad edilmiş şəhər və kəndlər bərpa ediləcək, bütün keçmiş məcburi köçkünlərin doğma yurd həsrəti bitəcək.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***